Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# Əsrin dörddə birinin uğurlu elmi təqdimatı

## Çağdaş ədəbiyyatın mənzərəsi və zamanın yetirdiyi yaradıcılıq imzaları

**Ədəbiyyat tariximizin bütün mərhələləri (qədim və erkən orta əsrlərdən bu günə qədər) özünəməxsusluğu ilə fərqlənməklə, yeni estetik problemlərin ortaya çıxarılması, mədəni-mənəvi, etik-fəlsəfi xüsusiyyətləri ilə səciyyələnməkdədir. Bununla bərabər, xalqımızın ictimai-siyasi durumunun keyfiyyətlərini özündə əks etdirən etnik-milli özünəqayıdış və özünüdərklə bağlı məqamlardan söhbət getdikdə, nədənsə istər-istəməz iki dövr xüsusilə diqqətimizi cəlb edir. Şərqdə ilk demokratik dövlət qurduğumuz dövr - Azərbaycan Demokratik Cümhuriyyəti zamanı və 1991-ci ildə yenidən Müstəqil Respublika qurduğumuz dövr daha mühümlüyü ilə seçilməkdədir.**

Həm Demokratik Cümhuriyyət, həm də yenidən müstəqillik qazandığımız dövrdə digər sferalarda olduğu kimi, ədəbi-mədəni həyatda da köklü dəyişikliklərin özülü qoyuldu. İdeoloji basqı və təzyiqdən, təkmetodlu sistemdən kənarlaşmaya, çeşidli, plüralist düşüncə və baxışlar ortaya qoymağa ehtiyac duyuldu. Demokratik Cümhuriyyətin ömrü o qədər uzun olmasa da, onun ədəbi-kultroloji, ictimai-siyasi, fəlsəfi-estetik fikir tariximizdə mövqeyi olduqca əzəmətli görünməkdədir. Ədəbiyyatda, bədii-poetik təfəkkürdə istiqlal ruhlu obrazlar ortaya çıxdı. Milli özünəqayıdış, özünüdərk və özünüqoruma əxlaqı ön plana keçdi. Cümhuriyyət dövründə M.Hadinin, A.Şaiqin, Ə.Müznibin, Ə.Cavadın, C.Cabbarlının və digərlərinin əsərlərində xalq idealları, milli xüsusiyyətlər, türkçülük, turançılıq, Azərbaycan əsgəri obrazı ön plana çıxdı. Poeziya ideoloji mübarizə vasitəsinə çevrildi. Cümhuriyyət dövrünün ideoloqları ədəbiyyatın yeni yöndə istiqamətlənməsinə təkan verdilər. Milli şüur, vətənpərvərlik, xəlqilik kimi ideallar prioritet təşkil etdi.

Müstəqillik illərində yaranan ədəbi nümunələrdə çətin və mürəkkəb mübarizə şəraitində gedən proseslərdə dövrün siyasi-ideoloji mənzərəsinin təqdim olunması az əhəmiyyət kəsb etmədi. Bununla belə, əgər Cümhuriyyət dövrü ədəbiyyatımızın ömrü cəmi-cümlətanı 23 ayı çevrələyirdisə, Müstəqillik dövründə yaranan ədəbiyyatımız artıq bir əsrin dörddə birindən artıq yaşa malikdir. Bu keşməkeşli və fəxarət doğuran illərdə ədəbi-bədii fikrimiz xeyli təşəbbüslərə imza atmağa nail oldu. Və, heç şübhəsiz ki, bu dövrün tarixi-nəzəri və praktik-metodoloji cizgilərini də yaradıb konsepsiyalaşdırmağa ehtiyac vardır. Bu baxımdan AMEA-nın vitse-prezidenti Nizami adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəylinin layihəsi, təşəbbüsü və elmi redaktəsi altında, "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Tehran Əlişanoğlunun yaxından iştirakı ilə işıq üzü görmüş "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyinin (Bakı, "Elm və təhsil", 2016) əhəmiyyəti olduqca böyükdür.

Akademik İsa Həbibbəylinin "Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı" adlı ön sözü ilə başlayan bu ikicildlikdə faktiki olaraq Azərbaycan ədəbiyyatının son dövr - əsrin dörddə birində keçdiyi mübarizə və qürur dolu yolunun, bədii fikrimizin səriştəli və ən başlıcası obyektiv mənzərəsi yaradılır. Qeyd olunan dövrdə ədəbiyyatımızın irəliləyişinə səbəb olan ictimai-siyasi, iqtisadi-mədəni proseslər təhlil olunur. Dövlətçiliyimizin möhkəmləndirilməsində ədəbiyyatın rolundan söhbət açılır, onun gedişini koordinasiya edən amillər diqqət mərkəzinə çəkilir. "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyi əsasən iki fundamental hissədən - "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı 1990-cı illərdə" və "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı müasir mərhələdə" cildlərindən ibarətdir. Birinci cild yeddi fəsil (bu dövr ədəbiyyatının təşəkkülü, Qarabağ müharibəsinin ədəbiyyatda inikası, 90-cı illər poeziyası və nəsri, dramaturgiya və teatr, bölgələrdə ədəbi həyatın xüsusiyyətlərini və bir sıra bədii təfəkkür sahiblərinin portret oçerklərini özündə əks etdirməkdədir) olmaqla, 1990-cı illər ədəbiyyatımızın estetik ovqatını yaratmaq baxımından dəyərli mənbə kimi diqqətimizi cəlb etməkdədir.




"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı müasir mərhələdə" adlanan ikinci hissə, fikrimizcə, həm həcm, həm də keyfiyyət baxımından daha böyük və əsaslı məsələləri özündə əks etdirməkdədir. Müəlliflərin də göstərdiyi kimi, artıq 2000-ci illərdən başlayaraq yeni ədəbi proses dərinləşmiş, müstəqillik dövrü ədəbiyyatı formalaşmışdır. Hər iki kitabda nəsr, poeziya, dramaturgiya və teatrın xüsusiyyətlərinə nəzər salınmış, təhlil obyekti kimi çıxış edən ədəbi janrların inkişafının görümlü mənzərəsi yaradılmışdır. Əgər birinci kitabda Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Anar, Elçin, Vaqif Səmədoğlu, Nəriman Həsənzadə, Fikrət Qoca, Hüseyn Kürdoğlu, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Nurəngiz Gün, Firuzə Məmmədli, Firuz Mustafa kimi ədəbiyyatda müəyyən yol keçmiş sənətkarların yaradıcılığı diqqət mərkəzinə çəkilmişdirsə, ikinci cilddə təqdim olunmuş portret-oçerklərdə Hidayət, K.Abdulla, H.Mirələmov, R.Məcid, E.Axundova, S.Vəliyeva, A.Abbas, M.Süleymanlı, A.Məsud, S.Səxavət, Ç.Abdullayev, S.Aran, S.Oğuz, N.Əbdülrəhmanlı, E.Hüseynbəyli, Y.Oğuz, İ.Fəhmi, Ş.Sadiq, M.İsmayıl, A.Cəmil, Ə.Əmirli, Q.Ağsəs, Ə.Qəşəmoğlu, E.Həbib, Q.Nəcəfadə, S.Sarvan kimi müasir nəsr və şeirin rəngarəng mənzərələrini təmsil edən bədii təfəkkür sahiblərinin yaradıcılığının müxtəlif tərəfləri təhlil obyekti kimi araşdırılıb ortaya qoyulmuşdur. Nəşrdən yenicə çıxmış kitabın ən mühüm keyfiyyəti ondan ibarətdir ki, ədəbiyyatımızın son 25 ildə olan janrlarının əksəriyyəti çoxsaylı müəllif kollektivinin baxış bucağından səciyyələndirilməkdədir.

İkicildliyin Dövlət müstəqilliyimizin 25 illiyinə həsr olunması nəşrin hazırlanma prinsiplərini də müəyyən etmişdir. Hər bir fəsil müəyyən bir mövzuda (20 yanvar və İstiqlal mübarizəsi, Qarabağ müharibəsi mövzusu, müasir Azərbaycanın obrazı, müasir ədəbi-mədəni proses) icmal-oçerklərlə şərh olunmaqla yanaşı, müvafiq portret-oçerklərlə möhkəmləndirilmiş, çağdaş ədəbiyyatın həm panoram-mənzərəsi yaradılmış, həm də zamanın yetirdiyi yaradıcılıq imzalarına diqqət cəlb edilmişdir.

İkicildlikdə nəzəri cəlb edən cəhətlərdən biri nüfuzlu ədiblərlə yanaşı, yaradıcılığı məhz müstəqillik illərində parlamış, imzasını təsdiq etmiş H.Mirələmov, R.Məcid, S.Vəliyeva, E.Hüseynbəyli, İ.Fəhmi, Q.Ağsəs, Ş.Sadiq və b. yazıçı və şairlərə də portret-oçerklər həsr olunmasıdır. Bir-birindən fərqli üslublarla yanaşı, yeni imzaları birləşdirən bir cəhət də qabarıqdır: mövzu aktuallığı, müasirliyin dərki, tarixə yenidən baxış. İlk növbədə publisist-tədqiqatçı kimi tanınmış, "Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi" əsərinin müəllifi Sona Vəliyevanın poetik və nəsr yaradıcılığı buna bariz nümunədir. Müstəqillik ab-havasını təcəssüm etdirən "Arazbarı" poetik toplusunun ədəbi mühitdə müəyyən əks-səda doğurması mövzu aktuallığı, oxucunun duyğu və düşüncələrinə bilavasitə təsirlə izah olunursa, "İşığa gedən yol" romanı tarixə müasir baxışla, maarifçilik hərəkatının lideri, milli mətbuatımızın banisi, millət fədaisi H.Zərdabinin həyat və fəaliyyətinə geniş maraq doğurması ilə önəmlidir. Roman bu gün qazanılmış müstəqilliyin şərəfli yolunun başlanğıcına diqqət cəlb edir, tarixi mübarizələrin salnaməsini əks etdirir.

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı"nda 25 il ərzində Azərbaycan ədəbiyyatının bölgələrdə də vəziyyətinin necə olduğunu izləmək imkanı əldə edirik. Təbiidir ki, 90-cı illərdə baş vermiş ictimai-siyasi, hərbi-iqtisadi proses və hadisələr nəinki isti-isti, həm də 2000-ci illərdə yazılmış ədəbi nümunələr əsasında bədii təfəkkür süzgəcindən keçirilmiş, bu dövrdə roman janrı mövzu-məzmun və ideya-estetik baxımdan kamilləşmiş, yeni magistral mövzuları və cərəyanları (məsələn, Qarabağ müharibəsinə həsr olunmuş romanlar, realist psixoloji romanlar, tarixi romanlar, modernist-ekzistensial romanlar, şərti-metaforik romanlar, postmodern romanlar və s.) çevrələyən əsərlərin müxtəlif tipli problematikaları ikicildliyin ikinci cildinin "Müasir Azərbaycan nəsri" bölməsində təhlillərə cəlb olunmuşdur. Kitabın "Müasir Azərbaycan ədəbiyyatı müstəqillik illərində" adlanan ikinci cildində müasir mərhələdə yaranıb inkişaf edən bədii örnəklərin ədəbi-mədəni prosesdə yerinin və rolunun vurğulanması da, fikrimizcə, zəruri haldır. Çünki dünya ədəbi prosesinin rəngarəng hadisələri kontekstində milli ədəbiyyatın ümumi mənzərəsini izləmək də, heç şübhəsiz ki, bu dövrdə yaranan ədəbiyyatımızın ümumi konturlarının necə görünməsinə xidmət etməkdədir.

Kitabda magistral məsələləri çevrələyən fəsillər sırasında "Müasir Azərbaycan ədəbiyyatında ədəbi cərəyanlar", "Elmi və ədəbi-tənqidi fikir müasir mərhələdə" və bir də "Azərbaycan ədəbiyyatının müasir əlaqələri" diqqəti daha çox cəlb etməkdədir. Düzdür, bəzi məsələlərə kitabda münasibət elə şəkildə qoyulmuşdur ki, onlar bir sıra mübahisələr doğurmaqdadır (hesab edirik ki, bu da təbiidir) və bununla bağlı bəzi müzakirə və diskussiyalar da aparmaq olar.

Ədəbiyyatımızın Avropa, Rusiya, Orta Asiya, Asiya və digər regionlarda yaradılan ədəbiyyatlarla olan əlaqələrinin çağdaş dövrdə öyrənilməsi də maraqlı hal kimi ortadadır. Bununla belə hesab edirik ki, ikinci cildin bu fəslində nəinki adları çəkilən dövlətlər və ədəbiyyatlarla, həm də Azərbaycan-Tatarıstan, Azərbaycan Şimali Qafqaz türklərinin ədəbiyyatı, Azərbaycan-Qaraqalpaq, Azərbaycan-Pribaltika ölkələri, Azərbaycan-Ukrayna, Azərbaycan-Belarus, Azərbaycan-Ərəb ölkələri, Azərbaycan-İran və digər xalqlarla olan ədəbi-mədəni əlaqələrdən danışmaq da yetərincə faydalı olardı.

Bununla belə, qeyd etdiyimiz xırda nüanslar, heç şübhəsiz ki, az bir zaman kəsiyində araya-ərsəyə gətirilmiş "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabının elmi-nəzəri və praktik -metodoloji qayəsinə və uğurlarına kölgə salmır. Ortaya qoyulmuş əsər bir daha sübut edir ki, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin bu sahədə yaratdığı canlanma, ədəbiyyatımızın çeşidli problemlərinin çözülməsində səmərəli olan elmi konsepsiyası gələcəkdə də davam etdiriləcək və İnstitutumuz yeni müvəffəqiyyətlərə imza atacaqdır.

**Nizami Tağısoy,**
**filologiya elmləri doktoru, professor**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***